# bp: "Sosial layihələrimiz əsas əməliyyatlarımızdan ayrılmazdır"

**Azərbaycanda 30 ildən çoxdur neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan bp şirkəti bu layihələri təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. bp-nin tərəfdaşları ilə birlikdə Azərbaycanda həyata keçirdiyi geniş sosial sərmayə proqramları da insanlara əhəmiyyətli faydalar gətirir, onların həyatının daha da yaxşılaşdırılmasına dəstək verir.**

Sosial sərmayələr yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə ümumilikdə 109 milyon dollardan çox vəsait xərcləyib.

"Kənd yerlərində gənc sahibkarlara dəstək" belə layihələrdən biridir. Adından da göründüyü kimi, layihə biznesin inkubasiyası modelinin tətbiqi vasitəsilə kənd yerlərində yaşayan gənc sahibkarlara dəstək məqsədi daşıyır.

Layihənin 2021-ci ilin aprelindən 2022-ci ilin sentyabrınadək davam edən birinci mərhələsində Samux, Goranboy və Şəmkir rayonlarından seçilmiş 30 nəfər gəncə biznesin qurulması və idarə olunması məqsədilə təlim keçirilib. Həmin müddətdə 29 biznes-plan işlənib hazırlanıb. İş quranlar lazımi avadanlıqlarla təmin edilib. Bu mərhələdə bp və tərəfdaşları 205 min 50 manat vəsait yönəldiblər. Gələn ilin oktyabrınadək davam edəcək ikinci mərhələ üçün isə 495 min 285 manat vəsait ayrılıb. Bu yaxınlarda bp-nin təşkilatçılığı ilə Samuxda səfərdə olan jurnalistlər rayonun Lək kəndində gənc sahibkar Elmir Vəliyevin avtomobil təmiri məntəqəsinə baş çəkdilər.





Elmir söylədi ki, uşaqlıqdan maşın ustası olmağı arzulayıb, bu peşəni atasından öyrənib. Lakin ordu sıralarından qayıtdıqdan sonra maşın təmiri ilə məşğul olmaq üçün münasib yeri və lazımi avadanlıqları olmayıb. Bir gün bələdiyyə sədrindən eşidib ki, bp belə bir layihə həyata keçirir və dərhal bu layihəyə qoşulmaq qərarına gəlir. Gəncədə 5 günlük təlim keçdikdən sonra ona maşın təmiri üçün vacib olan avadanlıqlar verilib. İndi layihədən özü də, köməkçisi də davamlı fayda görürlər.

"Kənd yerlərində gənc sahibkarlara dəstək" layihəsinin regional meneceri Xudayar Gülmalıyev bildirdi ki, layihənin ilk mərhələsinin əhatə etdiyi rayonların 7 bələdiyyəsi üzrə 9 kənddən seçilmiş 30 nəfər benefisarın əksəriyyəti gənclər olmaqla 11 nəfəri qadın, 19 nəfəri isə kişilərdən ibarətdir. Onlar artıq il yarımdır biznes sahəsində uğurla fəaliyyət göstərirlər. Məsələn, kənd təsərrüfatı sahəsini seçən 17 nəfərə Avstriya cinsi sayılan simmental sortundan olan inəklər verilib. Həmin heyvanların hamısı balalayıb. Hər biri də minimum 15 litr süd verir. Hətta bir yaşlı balanın çəkisi 440 kiloqrama çatır. Bu da heyvandarlıqda nümunəvi bir nəticədir.

"Yaşıl ürək". Torpaq erroziyasının və səhralaşmanın qarşısının alınması məqsədi daşıyan layihə isə belə adlanır. Reallaşması iki ildən çox vaxt aparan layihənin büdcəsi 2 milyon 446 min 100 manat təşkil edib.

Xatırladaq ki, bp həmçinin dörd ildən çoxdur iki mərhələdə "Şirin qızıl" layihəsini həyata keçirib. Nəticədə 6 rayonda 530 ailə öz şəxsi arıçılıq biznesinə başlayıb. Bu layihənin bir növ davamı olaraq arıçılıq təsərrüfatlarına yaxın ərazidə Azərbaycanın ilk "nektar meşəsi" salınıb. "Yaşıl ürək" adlanan layihənin meneceri Vüqar Bəşirov bu barədə də məlumat verdi:

- 2019-cu ilin ikinci yarısından arı ailələrinin saxlandığı ərazilərə yaxın yerlərdə ağaclar əkməyə başladıq. Yem bazası olan bu meşə massivindəki ağacların hamısı nektarverəndir. Akasiya, ağcaqayın, badam, xaricdə "bal ağacı" kimi tanınan evodiya ağacları əkdik. Deyim ki, evodiyanın çiçəkləmə prosesi avqust-sentyabr aylarına qədər davam edir. Bu da arıların qidalanması üçün çox əlverişlidir.

Təkcə Samuxda 110 min ağac əkilib. Rayonun torpaq və iqlim şəraiti nəzərə alınaraq ağacların suvarılması üçün infrastruktur da yaradılır. Bu məqsədlə istifadəsiz qalmış üç artezian quyusu bərpa edilib. Ümumilikdə isə "Yaşıl ürək" və "Şirin qızıl" layihələri çərçivəsində indiyədək Qobustanda 1000, Samuxda və Şəmkirdə ümumilikdə 315 hektar ərazidə on minlərlə ağac əkilib.

Qeyd edək ki, bp "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları adından təkcə ixrac boru kəmərləri boyu ərazilərdə deyil, Azərbaycanın bir sıra digər bölgələrində və paytaxtımızda da geniş sosial investisiya proqramları həyata keçirir.

Xeyli vaxtdır davam edən bir maraqlı layihə də var ki, "Gələcəyini qur" adlanır. Yeddi ildir maliyyələşdirilən bu təşəbbüsün məqsədi aztəminatlı ailələrdən olan bacarıqlı gənclərin universitetlərə hazırlaşmasına dəstək verməkdir.

Layihənin builki, yeni yeddinci mərhələsi üçün Qaradağ, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Hacıqabul, Samux və Goranboy rayonlarından 60 nəfər 11-ci sinif şagirdi seçilmişdi. İştirakçıların böyük əksəriyyəti təlim proqramını uğurla başa vuraraq yüksək nəticələr əldə ediblər. 54 nəfər ali təhsil müəssisələrinə, dörd nəfərsə kolleclərə qəbul olunub. İştirakçılardan ikisi qəbul imtahanlarında 600-dən, dördü isə 500-dən çox bal toplayıb.

İndiyədək adıçəkilən rayonların müxtəlif icmalarından olan təxminən 500 aztəminatlı ailə bu layihədən faydalanıb. Layihənin əvvəlindən ümumilikdə 542 iştirakçıdan 463-ü - təxminən 85 faizi ali məktəblərə qəbul imtahanlarının tələblərinə cavab verərək müxtəlif universitetlərdə tələbə adını qazanıb.

Sonuncu mərhələyə xərclənmiş təxminən 251 min manat da daxil olmaqla layihənin yeddi mərhələsinin birlikdə ümumi dəyəri təxminən 2 milyon manatdır. Layihəni "Build Your Future" MMC icra edib.

Bu günlərdə Bakıda layihənin növbəti uğurlu nəticələrini qeyd etmək üçün tədbir keçirilib. bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli tədbirdə çıxış edərək deyib: "Bu, bizim sevimli layihələrimizdən biridir və davamlı inkişafı dəstəkləmək məqsədimizə tam uyğundur. İnanırıq ki, bu layihə vasitəsilə istedadlı gənclərimizin öz uğurlu gələcəklərini qurmasına, eyni zamanda onların öz icmalarında həyat keyfiyyətini yaxşılaşdırmasına kömək edirik. Qürur duyuruq ki, bu günə qədər aztəminatlı ailələrdən olan onlarla gəncə universitet tələbəsi olmaq imkanı yaratmışıq. Layihəmizdə iştirak etməklə başladıqları bu yolun onları arzu etdikləri ixtisasa doğru aparacağına ümid edirik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.- 26 oktyabr, № 234.- S.12.